AZƏRBAYCAN www.azerbaijan-news.az

Azərbaycan Respublikasının Nazirlər Kabineti

N 157

QƏRAR

Bakı şəhəri, 15 aprel 2016-cı il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 2, maddə 145) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənddən "şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm" sözləri çıxarılsın.

2. 2.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.2.6-cı yarımbənd əlavə edilsin:

"2.2.6. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.".

3. Həmin Əsasnaməyə 1 nömrəli əlavə - "Avtovağzala / avtostansiyaya / pasportun verilməsi üçün ərizənin nümunəvi forması"na aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***